# Onlara belə görkəm çox yaraşır



**_Builki Beynəlxalq Qadınlar Gününü azərbaycanlı ana və bacılarımız qalib ölkənin təmsilçiləri kimi qeyd etmələrindən haqlı qürur duyurlar. Məhz onların doğmalarının – igid ərlərinin, oğullarının, qardaşlarının və atalarının hünəri sayəsində ötən ilin yarpaqlar saralan payız çağında yamyaşıl çətirli yaz ovqatı yaşamışıq. 44 günlük zəfər yürüşümüz Şuşanın əlçatmaz zirvələrində başa çatıb, əzəli torpaqlarımız işğaldan azad olunub. İllərcə boynubükük qalan gözəl xarı bülbüllərimizin vüsalına yetmişik. Odur ki, bu gün Azərbaycan qadınları daha da vüqarlı, daha da alnıaçıq görünürlər. Onlara belə görkəm çox yaraşır._**

Ulu öndər Heydər Əliyevin qadınlarımızla bağlı söylədiyi qanadlı sözləri heç vaxt yaddan çıxmır: "Azərbaycan qadınları öz ağıllarına və istedadlarına görə, gözəlliklərinə görə dünya qadınları içərisində özünəməxsus və çox yüksək yer tuturlar". Aləmə səs salan cəngavər oğulların anası olmaq da onların bəxtinə, taleyinə yazılıb. Azərbaycan qadınları tariximizin hər bir dönəmində cəmiyyətin mənəvi dayağı olublar. Xalqımızın zəngin milli mədəni sərvətlərinin qorunmasında və ali bəşəri keyfiyyətlərin nəsildən-nəslə ötürülməsində onların xidmətləri misilsizdir.

Prezident İlham Əliyev yeni cəmiyyət quruculuğunda – Azərbaycanın çiçəklənməsində qadınların rolunu daim yüksək qiymətləndirib. Dövlətimizin başçısı iftixarla bildirib ki, qloballaşma dalğasının ənənəvi dəyərlər sistemini sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda xanımlarımız milliliklə müasirliyin vəhdətini daxili aləmlərinin ayrılmaz tərkib hissəsinə çeviriblər və bu işıq yolunu şərəflə davam etdirirlər.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESCO kimi mötəbər təşkilatların xoşməramlı səfiri, YAP sədrinin birinci müavini Mehriban xanım Əliyeva bütün dünyada əsl xeyirxahlıq mücəssəməsi kimi tanınır. Özünün yüksək iradəsi, böyük məsuliyyəti və insanpərvərliyi ilə seçilən birinci xanımın təşəbbüsləri ilk növbədə duyğusal ürəkli və yüksək erudisiyalı bir Azərbaycan qadınının fərqli keyfiyyətlərinin təzahürü kimi dəyərləndirilməlidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafı, vətəndaşların həyat şəraitinin daha da yaxşılaşdırılması, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, səhiyyənin müasirləşdirilməsi, Vətən müharibəsi qazilərinin ən yüksək səviyyədə müalicəsi və sair bu kimi işlərdə məhz Mehriban xanımın birbaşa dəstəyi göz önündədir.

Fərəh doğuran haldır ki, Azərbaycanda qadınların fəal həyat mövqeyi üçün hər cür zəruri şərait var. Onlar həm həyat yoldaşı, həm ana və bacı, həm də istimai fəal insanlar kimi öz bacarıq və qabiliyyətlərini nümayiş etdirmək imkanına malikdirlər. Məşğul əhalinin ümumi sayının yarısını bizim zəhmətsevər qadınlarımız təşkil edirlər. Heç də təsadüfi deyil ki, ölkəmizdə qadınların sağlamlığının qorunması dövlətin diqqətində olan ən mühüm məsələlərdən biridir. Hazırda Azərbaycanda yüzlərlə doğum evi və qadın məsləhətxanası, 250-dən artıq uşaq poliklinikası və ambulatoriyası qadınların sağlamlığının keşiyində durur.

Hər bir övladın ilk müəllimi qadındır. Uşaqların tərbiyələnib zəka sahibinə çevrilməsi öncə anaların ev dərslərindən başlayır. Azərbaycan qadınları oğul övladlarına mərdlik, insanpərvərlik, qızlarına abır, ismət təlqin edir, əxlaqi dəyərlərimizi inamla sabaha daşıyırlar. Elə ölkəmizin təlim-tərbiyə və təhsili sahəsində də qadınlar sayca üstündürlər. Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 81 faizi, orta ixtisas təhsil müəssisələrində 77,9 faizi, ali təhsil müəssisələrində 54,8 faizi, elmi işçilərin isə 58,1 faizi qadınlardır. Alim qadınlarımız azmı kəşflərin, elmi yeniliklərin müəllifləridir? Təkcə son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,6 dəfə, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,3 dəfə artıb.

Azərbaycan qadınlarının cəsarəti, fədakarlığı dastanlara sığmaz. Vətən müharibəsi başa çatdıqdan sonra müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevi işğaldan azad olunmuş rayonlara səfərlərində birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dəfələrlə müşayiət ediblər. Hərbçilərimizin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasında, yaralıların tezliklə sağalmasına ciddi səylər göstərilməsində onların xidməti əvəzsizdir.

...Bu günlərdə Bakının Ramana qəsəbəsində yeni ev alan şəhid ailələri və müharibə əlilləri ilə görüşdə nazirlik rəsmiləri ilə yanaşı, Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimovun anası Səmayə xanımın da iştirakı hər kəsi duyğulandırdı. Əsgərlər onun əlini öpdülər.

...İkinci Qarabağ müharibəsində şəhid olan soydaşlarımızın arasında yeganə qadın olan hərbi tibb qulluqçusu Arəstə Baxışova isə həyatını Vətənə fəda edənlərdəndir. Oktyabrın 23-də Qubadlıda yaralılarımızı döyüş meydanından çıxararkən qəhrəmancasına həlak olub. Ölümündən sonra "Vətən uğrunda" medalına layiq görülüb. Bu il ailəsi 8 Mart bayramını onsuz keçirsə də, onun əziz xatirəsi xalqımızın qəlbində yaşayır.

...Özü tibb bacısı olan Zeynəb ana isə övladlarını mərd, mübariz qəhrəmanlar kimi yetişdirib. Onun böyük oğlu 1992-ci ildə, kiçik oğlu isə 2016-cı ilin şanlı Aprel döyüşlərində şəhid olublar. Ötən il sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlananda Zeynəb ana əsgər balalarımıza kömək etmək niyyəti ilə səfərbərlik üçün komissarlığa gedərək qeydiyyatdan keçib. "Əsgərlərin yarasını sarıyaram, nə tapşırıq verilsə, yerinə yetirərəm", – deyib.

Belə mərd, aslan ürəkli Azərbaycan qadınları yüzlərlə, minlərlədir. Hər birinin özünəməxsus ibrətamiz həyat hekayəsi var. Amma hətta qeyri-adi şücaət göstərməmiş, sadədən-sadə, adidən-adi, cəfakeş evdar xanımlarımız belə bizim gözlərimizin işığı, qəlblərimizn sevincidir. Dillərindən xalqımız, dövlətimiz, sabahımız üçün Tanrı dərgahına ünvanlanan dualar əskik olmayan, qayğıları ilə ömürlərimizə işıq saçan bütün qadınların bayramını təbrik edirik!

***Əli NƏCƏFXANLI,***
***Əməkdar jurnalist***

Xalq qəzeti 2021.- 10 mart.- S.9.